

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 sentyabr 2022-ci il
Cümə

1933-cü ildən çıxır
№ 37 (3600)


# PREZİDENT İLHAM ƏLİYEV LAÇIN ŞƏHƏRİNƏ SƏFƏR EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb.

Sonra ölkəmizin rəhbəri çıxış edib.

Qırx dörd günlük Vətən müharibəsinin sonunda Ermənistanın kapitulyasiya aktına imza atmağa məcbur olduğunu deyən dövlətimizin başçısı qeyd edib ki, Laçın rayonu da 30 ilə yaxın işğal altında olmuş digər şəhər və kəndlərimiz kimi erməni vandalizminə məruz qalıb. Bundan başqa, torpaqlarımızda Suriya və Livandan olan ermənilərin qanunsuz məskunlaşması aparılıb. Prezident İlham Əliyev çıxışında bütün bu hərbi cinayətlərin dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrlərinin gözləri qarşısında açıq-aşkar baş verdiyini, lakin baş verənlərə onların yalnız seyrçi münasibət bəslədiklərini diqqətə çatdırıb.

Qalib tərəf olmağımıza baxmayaraq müharibədən dərhal sonra ermənilərə sülh təklif edildiyini xatırladan dövlətimizin başçısı delimitasiya prosesinə də toxunub. O, prosesin sırf formal xarakter daşıdığını, mahiyyət üzrə heç bir danışıqların, eləcə də xəritələr üzrə heç bir müzakirələrin aparılmadığını vurğulayıb.

"Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar."

Son aylarda Ermənilərin dəfələrlə törətdiyi hərbi təxribatlardan söz açan Prezident İlham Əliyev sentyabrın 13-də törədilən növbəti təxribata Azərbaycan Ordusunun layiqli cavab verdiyini, düşməni yerinə oturtduğunu deyib. Qeyd edib ki, ordumuz Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdədir və bu mövqelər bizə hərbi üstünlüklə yanaşı, böyük əraziyə vizual nəzarət etmək imkanı yaradıb.

Çıxışında dövlətimizin başçısı həmçinin Ermənistanın ittihamlarına da cavab verib.

"Əgər sərhəd onların dediyi yerdə idisə sərhədi qurardılar, sərhəd xətlərini inşa edərdilər, kommunikasiyaları, mühəndis işlərini qurardılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər.

Yəni, bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz."

Prezident İlham Əliyev sonda haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarı olduğumuzu, öz ərazi bütövlüyümüzü qoruduğumuzu bir daha ictimaiyyətin diqqətinə çatdırıb.

Sonra ölkəmizin rəhbəri Laçın şəhərinin mərkəzi küçəsində ermənilərin törətdikləri dağıntılara baxıb, şəhərin ərazisini seyr edib.

# Nazir Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və vətəndaşların bölgələrdə qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov sentyabrın 22-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə Gəncə şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəhər Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Göygöl, Samux, Kəlbəcər, Daşkəsən, Ağstafa, Tovuz, Gədəbəy, Qazax və Şəmkir şəhər və rayonlarından qəbula gələn vətəndaşların müraciətlərini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.



Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Daha sonra general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 302 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 68-i Vətən müharibəsi iştirakçısı, 2-si isə şəhid ailələrinin üzvləri olublar.



Sonda daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha effektiv tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

# Şəhid qardaşı, cəsur döyüşçü

## Baş çavuş İxtiyar Hüseynov: "Qardaşımı itirsəm də, ən böyük təsəllim odur ki, torpaqlarımızı azad etdik"



44 günlük Vətən müharibəsində igidlik və şücaət göstərən hərbi qulluqçularımızdan biri də baş çavuş Hüseynov İxtiyar Afik oğludur. O, 1993-cü il iyulun 11-də Gədəbəy rayonunun Şurakənd kəndində (əvvəllər Sovetabad olan bu yaşayış məntəqəsinin indiki adı Şahdağdır) doğulub. Orta təhsilini Gədəbəy rayonu şəhid Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin yanvar ayından 2013-cü ilin iyul ayınadək Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb və yenidən ordu sıralarına qayıdıb. Beləliklə, 2014-cü ilin dekabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin sülhməramlı polisə dəstək bölüyündə baş atıcı-pulemyotçu vəzifəsində xidmətə başlayıb. 2016-cı ilin may ayından 67987 saylı hərbi hissənin "Kobra" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda heyət nəfəri, atəş təminatı qrupunun qumbaraatan yarımqrupunda qumbaraatan, xüsusi həmlə qrupunda atıcı-qumbaraatan, 2018-ci ilin noyabr ayından etibarən isə xüsusi həmlə qrupunda pulemyotçu kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib.

44 günlük Vətən müharibəsi başlayanda isə baş çavuş İ.Hüseynov Müdafiə Nazirliyinin "N" saylı xüsusi təyinatlı bölməsinin istehkamçı qrupunda istehkamçı vəzifəsində müddətli həqiqi hərbi xidmətdə olan qardaşı əsgər Rafiz Hüseynovla birlikdə döyüşlərə Murovdağ silsiləsinin Kəlbəcər rayonu istiqamətindən qatılıb: "Həmin vaxt dəstə komandirimiz, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Füzuli İmrəliyevin rəhbərliyi altında qrupumuz təxminən saat 23:00-da düşmən postlarına və səngərlərinə hücum edib, bir sıra mühüm mövqelərini tutmağa müvəffəq oldu. Lakin qəflətən səhhətimdə yaranmış problemlər səbəbindən yeriyə bilmirdim və tez-tez ani olaraq özümdən gedirdim. Sağlamlıq durumum yaxşı olmadığından, polkovnik F.İmrəliyev təxliyyə qrupu çağıraraq, qayanın arxasından çıxmamağımı tapşırdı. Bir neçə saatdan sonra ayıldım ki, yanımda heç kim yoxdur. Gecə təxminən saat üç radələri olardı, mənim üçün çağırılmış təxliyyə qrupu gəlmişdi. Dəstəmizin şəxsi heyəti öndə vuruşduğu üçün, təxliyyədən imtina edib, artıq özümü yaxşı hiss etdiyimi bildirib yenidən döyüşə qatıldım. İki gün burada düşməndən azad etdiyimiz mövqelərin müdafiəsində dayandıq.

Sentyabrın 30-da yuxarı komandanlıqdan cəbhənin digər istiqamətində hərbi əməliyyatlarda iştirak edəcəyimizlə bağlı yeni tapşırıq gəldi. Olduğumuz mövqeləri Müdafiə Nazirliyinin bölmələrinə təhvil verib, dərə yatağı ilə enməyə başladıq. Oradan çıxmağımızı görən düşmən bizi güclü artilleriya atəşinə tutdu. Mənimlə eyni maşında olan döyüşçü yoldaşımız, 17074 saylı hərbi hissənin xüsusi təyinatlısı baş çavuş Tofiq Həsənov şəhid oldu, bir neçə silahdaşımız ağır yaralandı. Mən sağ ayağımdan yüngül qəlpə yarası aldım. Buna baxmayaraq, döyüşləri davam etdirdim".

Bundan sonra baş çavuş İ.Hüseynov Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində gedən döyüşlərdə fəal iştirak edib. Oktyabrın 6-da Cəbrayıl rayonu ərazisində azad etdikləri mövqelərin ermənilər tərəfindən artilleriya atəşinə tutulması nəticəsində partlayış travması alsa da, yenidən bir müddət döyüşü davam etdirib: "Döyüş meydanında məğlubiyyətə düçar olan düşmən uzaq məsafədən olduğumuz mövqeləri güclü artilleriya atəşinə tuturdu. Səhər saatlarında "Qrad" mərmisinin yaxınlığımıza düşməsi nəticəsində şəhid və yaralılarımız oldu. Şəhid olmuş döyüşçü yoldaşlarımızdan biri də 67987 saylı hərbi hissənin xüsusi təyinatlısı baş çavuş Əsgər Əhmədov idi. Onunla aramızda təxminən 20 metr məsafə olardı. Mən özüm ağır partlayış travması aldığımdan, huşumu itirmişdim. Bir neçə saatdan sonra atıcı-sanitarlar tərəfindən tibbi yardım aldıqdan sonra özümə gəlib, döyüşü davam etdirdim. Xocavənd rayonunun Noraşen kəndində (indiki Günəşli kəndi) düşmənin mühasirəsinə düşməyimizə baxmayaraq, onların xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, strateji yüksəkliyi azad etdik. Ancaq aldığım ağır partlayış travmasından səhhətimdə getdikcə problemlərin artması səbəbindən oktyabrın 16-da məni döyüş meydanından təxliyyə etdilər. Əvvəlcə Füzuli rayonunun Əhmədbəyli kəndində yerləşən hərbi hospitala, bir neçə gün tibbi yardım göstərildikdən sonra Müdafiə Nazirliyinin Bakı şəhərindəki Hərbi Hospitalına, oradan da Daxili Qoşunların Hərbi Hospitalına gətirildilər".

Daxili Qoşunların Hərbi Hospitalında müalicə aldıqdan sonra, oktyabrın 27-də növbəti dəfə döyüş bölgəsinə qayıdanda İxtiyar qardaşı, əsgər Rafiz Hüseynovun şəhid olması xəbərini eşidib. Bildirdiyinə görə, Rafiz Şuşanın Daşaltı kəndi istiqamətində düşmən minasının partlaması nəticəsində ağır yaralanmış komandirinə özünü yetirib kömək etmək istəyərkən başından aldığı snayper gülləsindən şəhid olub. Cəsur qazimiz qardaş itkisindən bərk sarsılsa da, özünün də qeyd etdiyi kimi, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vahid komandanlığı altında torpaqlarımızın erməni işğalçılarından azad edilməsilə bütün şəhidlərimizin intiqamının mənfur düşməndən alınması Hüseynovlar ailəsinin ən böyük təsəllisidir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il və 24.06.2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Hüseynov İxtiyar Afik oğlu "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

2020-ci ilin avqust ayında ailə quran İxtiyar övladına şəhid qardaşı Rafizin adını verib.

*mayor Anar Əhmədov*

# "BİLİK GÜNÜ" VƏ ANDİÇMƏ MƏRASİMİ




Sentyabrın 15-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Bilik günü"nə və əvvəllər daxili işlər orqanlarında xidmət etməmiş I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələrinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni ifa edilib.

Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbrikini şəxsi heyətə çatdırıb.

Ötən dövr ərzində əldə olunmuş nailiyyətlərə toxunan Akademiya rəisi peşəkar polis kadr hazırlığı istiqamətində qarşıya qoyulmuş vəzifələrin bundan sonra da əzmlə yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Kursantlar adından çıxış edən beşinci kursun əlaçı kursantı Süleyman Süleymanov ölkə və Daxili İşlər Nazirliyi rəhbərliyinin diqqət-qayğısı sayəsində maddi-texniki bazası gündən-günə təkmilləşən Polis Akademiyasında əldə etdikləri bilik və bacarıqların gələcəkdə polis zabiti kimi xalqa və dövlətə xidmət kimi müqəddəs vəzifənin ləyaqətlə yerinə yetirilməsinə zəmin yaratdığını qeyd edib.

Sonra polis general-mayoru C.Daanov ötən tədris ilini əla qiymətlərlə başa vurmuş 3 kursanta "Əlaçı kursant", idmanda qazandıqları uğurlara görə isə 5 kursanta "İdmançı kursant" döş nişanı, eləcə də qəbul imtahanında 650-dən yüksək bal toplamış 4 kursanta qiymətli hədiyyələr təqdim edib.

I kurs kursantlarının "Polis Andı"nı qəbul etməsi ilə davam edən tədbir şəxsi heyətin "Polis Akademiyasının marşı" sədaları altında təntənəli keçidilə başa çatıb.

*"Polis"*

# Narkomaniya "KÜTLƏVİ QIRĞIN SİLAHI"dır

Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 7 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Əvvəlcə Azərbaycan-Ermənistan dövlət sərhədində düşmənin genişmiqyaslı təxribatının qarşısını alarkən şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

"Bizim seçimimiz sağlam həyat, ümidimiz isə gələcəkdə Vətənimizi əmanət edəcəyimiz uşaqlar və gənclərdir. Bu gün həyatımıza qənim kəsilən, bizi hədəfimizdən yayındıran bir bəla ilə üzbəüzük ki, adına narkomaniya deyirlər. Gücümüzü, vaxtımızı onunla mübarizəyə ona görə yönəltmişik ki, o can almasın, kütləvi qırğın silahına çevrilməsin",-deyən ŞPRŞ-nin rəisi, polis polkovniki Azər Cahangirov bu bəla ilə mübarizədə bütün dövlət qurumlarının həmrəylik sərgilədiyini diqqətə çatdırıb.



O, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"-nın əhəmiyyətindən danışıb, narkomaniya əleyhinə aparılan işlərin hər zaman diqqət mərkəzində olduğunu bildirib.



Qeyd olunub ki, həyata keçirilən tədbirlərin, əldə olunan nəticələrin effektiv olması üçün Daxili İşlər Nazirliyinin və yerli polis orqanlarının əməkdaşları bu istiqamətdə ciddi əməliyyat-istintaq tədbirləri görməklə yanaşı, həm də yeniyetmə və gənclərlə vaxtaşırı maarifləndirici görüşlər də keçirirlər.

Daha sonra mövzu ətrafında çıxışlar dinlənilib və məktəblilərin sualları cavablandırılıb. Sonda isə narkotik vasitələrin səbəb olduğu fəsadlardan, acı təsirlərdən bəhs edən video-çarx izlənilib.

*Məhəmməd Rzayev, polis baş leytenantı*

# Vətən borcu, vəfa borcudur

Ucar Rayon Polis Şöbəsinin əməkdaşları yeni dərs ilinin başlanması ilə əlaqədar Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Ağayusif Əliyevin və Allahverdi Ələkbərovun ailəsini ziyarət ediblər. Şəhidlərimizin məktəbli övladlarını təbrik edən həmkarlarımız onlara təhsillərində uğurlar arzulayıb, məktəbli çantası və dərs ləvazimatları hədiyyə ediblər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə DİN rəhbərliyinə və Ucar RPŞ-nin kollektivinə təşəkkürlərini bildiriblər.





*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Ən fəal dövlət orqanı





**Bu günlərdə Onlayn İctimai Nəzarət Platforması (www.enezaret.az) layihəsinin rüblük yekunlarına dair görüş keçirilib.**

Tədbirdə dövlət qurumlarının, QHT-lərin və mətbuatın iştirakı ilə 2022-ci ilin iyun-avqust ayları ərzində Platformaya daxil olmuş müraciətlər, onların icra vəziyyəti və digər məsələlər müzakirə edilib.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi vətəndaşların müraciətlərinə baxılması və bu müraciətlərdə qeyd olunan problemlərin həllinə, rübün nəticələrinə görə "Ən fəal dövlət orqanı" mükafatına layiq görülüb.

*"Polis"*

# Gənclərə, gəncliyə sahib çıxırıq

Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın tələblərinin yerinə yetirilməsi, DİN-in müvafiq göstərişi və yeni tədris ilinin başlaması ilə polisin maarifləndirici tədbirləri geniş vüsət alıb. Gənclərlə keçirilən görüşlər həm hüquqazidd hallarla mübarizə, həm də perspektiv vəd edən gənclərin cəmiyyətdə layiqli yerini almasının təşviq edilməsi məqsədilə keçirilir.



**Sabirabad, Hacıqabul, Ağsu, Zərdab, Balakən,**



**Qax, Ağstafa, Şirvan və Gədəbəy Rayon Polis şöbələri** bu istiqamətdə yerli təhsil ocaqlarının pedaqoji heyəti, aidiyyəti icra hakimiyyəti orqanlarının nümayəndələrini də cəlb etməklə orta məktəblərin yuxarı sinif şagirdləri ilə görüşlərə başlayıblar. DİN-in Şəxsi Heyətlə İş İdarəsinin təşkilatçılığı, yerlərdəki rəis köməkçilərinin iştirakı ilə keçirilən tədbirlərə ictimaiyyət nümayəndələri, təcrübəli polis əməkdaşları, veteranlar qatılıblar. Çıxış edənlər müxtəlif mövzularla bərabər, polisin tarixi, daxili işlər orqanlarında xidmət etmək şərəfi, DİN-in Polis Akademiyasında təhsil almağın üstünlükləri barədə söhbət açıblar.

Tədbirlərdə Azərbaycan Polisinin tariximizin bütün mərhələlərində Vətənə sədaqətlə xidmət etdiyi, xalqımızın ən çətin dönəmlərində, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında, cinayətkarlığa qarşı mübarizədə fədakarlıqlar göstərdiyi xüsusilə qeyd edilib. Vətən müharibəsində tariximizin qüdrətli dövrünün müəllifinə çevrilən Azərbaycan gəncliyinin sırasında gənc polis əməkdaşlarının, Polis Akademiyasının məzunlarının olduğu yada salınıb, onların cinayətkarlığa qarşı mübarizədə yaxından iştirak etməklə güclü Azərbaycanın əsas müdafiəçiləri olduqları vurğulanıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*



# QALİBLƏR MÜKAFATLANDIRILIB

***Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında milli komandamızın tərkibində çıxış edən DİN İdman Cəmiyyətinin 13 idmançısı ayrı-ayrı növlər üzrə 3 qızıl, 3 gümüş və 1 bürünc olmaqla, ümumilikdə, 7 medal qazanıb.***

Belə ki, Oyunlarda uğurlu çıxışları ilə azarkeşləri sevindirən Fəridə Əzizova (taekvondo 67 kiloqram), Anar Məmmədov (kikboksinq full-kick növü 57 kiloqram) və Fərid Ağamoğlanov (kikboksinq full-contact növü 63 kiloqram) I yeri tutublar. Digər təmsilçilərimiz - Dadaş Dadaşbəyli (ağır atletika 102 kiloqram), Saqi Salehli (kikboksinq full-contact növü 75 kiloqram), Ramal Aslanov da (kikboksinq low-contact növü 75 kiloqram) aktivlərinə gümüş medal yazdıraraq məşqçi-müəllimlərin ümidlərini doğruldub. Kikboksinqin full-contact növü üzrə 51 kiloqramda çıxış edən Amil Məmmədov isə yarışda bürünc medala sahiblənib.

Təmsilçilərimizi yarışlara DİN İdman Cəmiyyətinin İdman təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov, məşqçi-müəllim Səbuhi Zülfüqrov və DİN Baş Mühafizə İdarəsinin Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin polis nəfəri, poli baş serjantı Hikmət Hacıyev hazırlayıblar.

Mükafatçılarla görüşən İdman Cəmiyyətinin rəisi, polis polkovniki, Olimpiya çempionu Zemfira Meftahətdinova DİN rəhbərliyinin etimadını doğrultduqlarına, uğurlu çıxışlarına, həmçinin əldə etdikləri nailiyyətlərə görə onlara minnətdarlığını bildirib. O, bu yüksək nəticələrin bundan sonra da mötəbər beynəlxalq yarışlarda davamlı olacağına əminliyini ifadə edib.

Yeri gəlmişkən qeyd edək ki, V İslam Həmrəyliyi Oyunlarında I, II, III yeri tutanlar və məşqçi-müəllimlər DİN-in müvafiq əmri ilə mükafatlandırılıblar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# HƏMKARLARIMIZ mükafatçılar sırasında




**İtaliyanın Riççione şəhərində böyüklər arasında cüdo üzrə Açıq Avropa Turniri keçirilib.**

Dünyanın 35 ölkəsindən 376 idmançının qatıldığı yarışda Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis sıravisi Məmmədəli Mehdiyev də gücünü sınayıb.

O, 90 kiloqram çəki dərəcəsində olsa da, 100 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxıb. İlk qarşılaşmada italiyalı Andres Felipe Moreneyə ippon xalı ilə qalib gəlib. Ardınca bolqarıstanlı Boris Georgievi vazari, Fransa təmsilçisi Aleksandr İddirini isə ippon xalı ilə məğlub edən həmkarımız finala gedən yolda Hollandiya cüdoçusu Simeon Catharini də məğlub edib.




Final görüşündə ayağı zədələnən M.Mehdiyev baş məşqçinin məsləhəti ilə ölkəmizin digər cüdoçusu Zelim Kotsoyevin xeyrinə yarışı davam etdirməyib. Bununla da, o, turnirin gümüş medalı ilə kifayətlənib.

Cüdoçularımız turniri 6 medalla başa vurub.

❖❖❖

**Digər bir yarış isə Buxara şəhərində keçirilib.**

Yarışa Özbəkistan, Qazaxıstan, Hindistan, Tacikistan, Əfqanıstan, Qırğızıstan, Türkmənistan, İran və Pakistandan 460 iştirakçı qatılıb.

Kombat Ciu-citsu üzrə açıq Asiya çempionatında DİN İdman Cəmiyyətinin idmançıları da çıxış ediblər.

Veteranlar arasında 85 kiloqram çəki dərəcəsində Məğrur Əhmədov "full contact" üzrə gümüş, "close contact" üzrə bürünc medal qazanıb. Sabir Həsənov isə 21-36 yaşlar arası qrupda 85 kiloqram çəki dərəcəsində turnirdən bürünc medalla ayrılıb.

Qeyd edək ki, komandamızı bu yarışa Azərbaycan Respublikasının fəxri bədən tərbiyəçisi, əməkdar məşqçi Rəsul Məmmədov hazırlayıb. O, həm də Beynəlxalq Kombat Ciu-citsu federasiyasının hakimlər komitəsinin sədridir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Sıravi və kiçik rəis heyəti vəzifələrinə (operator) xidmətə qəbulla bağlı müsabiqə

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

***Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2022-ci ilin avqust ayının 25-dən sentyabr ayının 25-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63 / 80-63 daxili**
**(012) 590-80-66 /80-66 daxili**

# Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

**Bağçalar: 1 saylı-(012) 594-14-49, 2 saylı-493-05-68, 3 saylı-440-82-35, 4 saylı-563-55-80**

# KÖMƏYƏ POLİS ÇATDI




**Şəmkir rayon sakini Mətanət Əsgərova "102 Xidməti-Zəng Mərkəzi"nə oğlunun "28 may" metrosunun yaxınlığında itməsi ilə bağlı məlumat verib.**

Məlumat aidiyyəti üzrə Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinə daxil olduqdan sonra əməliyyat qrupu hadisə yerinə gəlib.

Müəyyən olub ki, 2009-cu il təvəllüdlü Abbas Bayramov autizm xəstəliyindən əziyyət çəkir. O, saat 17:00 radələrində "28 may" metrostansiyasının qarşısında yoxa çıxıb.

Şahidlərin sözlərinə görə, uşaq metroya daxil olub. Abbasın axtarışına Bakı Metropolitenində Polis Şöbəsinin əməkdaşları da cəlb olunub. Qısa zaman kəsiyində, müəyyən olunub ki, uşaq "20 yanvar" metrostansiyasındadır.




Anar Rüstəmov polis kapitanı
Samir Axundov polis mayoru

Polis əməkdaşlarının yüksək peşəkarlığı sayəsində Abbas ailəsinə qaytarılıb.

***Ruslan Vəliyev, polis baş leytenantı***

# Sağlam yaşa



2000-ci ildən etibarən hər il sentyabrın ikinci şənbəsi Ümumdünya İlk Tibbi Yardım Günü kimi qeyd olunur. İlkin tibbi yardımın məqsədi zərərçəkənin həyatını xilas etməklə yanaşı, ilkin tibbi tədbirlər görməklə onun ağrılarını azaltmaq və mümkün ağırlaşmaların qarşısını almaqdır.

İlkin tibbi yardım çantasında olmalıdır:

Travma (çıxıqlar, sınıqlar, saxlamaq üçün tənzimlənən (təzyiqli) jqut;
- Steril və qeyri-steril bint;
- Çirkli yaraları sarımaq üçün dioksidli və ya gümüş nitratlı sarğı;
- Steril tibbi sarğı paketi;
- Leykoplastr, bakterisid leykoplastr;
- Spirtdə 5 faizli yodun, yaxud 1 faizli brilyant abısının məhlulu və s.

Ürək ağrılarına qarşı va-

## İlkin tibbi yardım çantasında olmalıdır



əzilmələr), şok, yaralanmalar zamanı istifadə olunan ağrıkəsici, şoka qarşı və iltihab əleyhinə vasitələr:
- Analgin (yaxud əvəzedici);
- Portativ hipotermik (soyuducu) paket-konteyner;
- Natrium sulfasil məhlulu;
- Aspirin.

Qanaxmanın dayandırılması, yaranın təmizlənməsi və sarğı üçün vasitələr:
- Özünə və qarşılıqlı yardım məqsədilə arterial qanaxmanı

sitələr:
- Nitroqliserin həbləri, yaxud kapsulası (trinitrolonq).

Ürəkgetməyə qarşı vasitə:
- Ammiak məhlulu (naşatır spirti).

Qida və sair zəhərlənmələrdə dezintoksikasiya üçün vasitələr:
- Aktivləşdirilmiş kömür.

Qayçı (kütuclu).

Birdəfəlik istifadə üçün qeyri-steril tibbi əlcək.

***Natiq Abdullayev***


# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il tarixlərində 2-ci mövsüm üzrə standart otaqların bir günlük qiymətləri**

**(Daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVİD-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metro stansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# STATİSTİKA

## Kriminal icmal

- Sentyabrın 14-dən 22-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 544, əvvəlki dövrlərdən bağlı qalan 74 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 461, o cümlədən borclu şəxs qismində axtarışda olan 306 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 17 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 19 nəfər ölüb.
- Narkotiklərlə əlaqəli 324, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 15 fakt müəyyən edilib.

***Natiq Cavadov***


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik